Sözü satdın ikicə yüz dollara,
Şair sözlərini saya salmadın.
Kişi hara, yalan olan söz hara?
Sözlərimi heç hesaba almadın.

Sözü atdın əl çirkindən ötəri,
Bilmədinmi bu söz kimin sözüdü?
Sözlərimin olmadımı təpəri?
Görmədinmi Nəriman Əyyub özüdü?

*15.10.2003.*

## QANLI YANVAR

Qanlı yanvar gecəsində,
yananları yada salın!
Meydanlarda fəryad edən,
cavanları yada salın!
Küçələrdə əziləni,
insanları yada salın!
İmperiyanı vəhşi bilib,
dananları yada salın!
Öz xalqına kömək olan,
qananları yada salın!
Xalq yolunda canın verən,
qurbanları yada salın!





Yada salın həmin gündə,
torpaq altda yatanları.
Yada salın cəlladları,
xalqa güllə atanları.
Yada salın qaçanları,
vətənini satanları.
Yada salın Xəzərimdə,
dalğalarda batanları.
Yada salın nadanları,
aralığı qatanları.
Yada salın vəzifəni,
iki əlli tutanları.

Unutmayın xalqımızı,
güllələbaran edənləri.
Unutmayın xalqı atıb,
Moskvaya gedənləri.
Unutmayın o müqəvva,
o yaramaz bədənləri.
Unutmayın Qorbaçovu,
vətənimi didənləri.
Unutmayın daldalanıb,
xalq malını güdənləri.
Unutmayın rütbə üçün,
xalqa pislik edənləri.
Gəzin bütün Xiyabanı,
ölənləri xatırlayın.

Vətənimi iki yerə,
bölənləri xatırlayın.
Xalqı qıran vəhşiləri,
ilanları xatırlayın.
Xeyli müddət çadırlarda,
qalanları xatırlayın.
Yanvar günü ortalıqda,
yananları xatırlayın.

Xalqımızı bir gecədə,
gülləbaran eylədilər!
Azadlığı istəyəni,
əzib alqan eylədilər!
Bakımızı vəhşiliklə,
tamam viran eylədilər!
Küçələri başdan-başa,
qırmızı qan eylədilər!
Bayraq əldə sağ qalanı,
yarımca can eylədilər!
Çoxlarını tikə-tikə,
çılpaq-üryan eylədilər!

Yaddan çıxartmayın heç an,
illər gəlib keçsə belə.
Yeri gəlsə ermənini,
tökün dənizlərə, gölə.





Qov dağlardan, yamaclardan,
sal dərədə çovğun selə.
Bizlərə pislik edirlər,
o murdarlar bilə-bilə.
Yenə yaltaqlansa sənə,
qəbul etmə, tulla çölə.
Əbədi düşmənimizdi,
ermənilər bilin lələ!

*20.01.2003*

**AĞLAYIR**

Yuxuda görürəm Dədə Şəmşirim,
Ulu dağlarıma baxıb ağlayır.
O böyük ocağım, o böyük pirim,
Qəlbimi odlara yaxıb ağlayır.

Çıxıb Ağdabanda yalın belinə,
Rast gəlməyir obasına, elinə.
Qıfıl vurulubdur şair dilinə,
Qayalar başına çıxıb ağlayır.

Hüseyn Kürdoğlu nəğməkar şair,
Dərdli şer yazır Vətənə dair.
Xəyalən özünü Laçında sayır,
Həsrətdən gözünü sıxıb ağlayır.